# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 105** **Bakı şəhəri, 26 fevral 2024-cü il**

***"Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 128 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 694 (Cild I) ilə təsdiq edilmiş "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.10-cu bənddə "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

1.2. 2.11-ci, 2.14-cü və 2.15-ci bəndlərdə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

1.3. həmin Qaydaya 3 nömrəli əlavə - "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqənin nəticələri haqqında müsabiqə komissiyasının protokolu"nun 3-cü hissəsində "kütləvi informasiya vasitəsinin" sözləri "media subyektinin" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 17 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1224 (Cild I) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının seçilməsi Qaydası"nın 6.2-ci bəndində "KİV-də" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**3.** "Həbs yerlərinin daxili intizam Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 fevral tarixli 63 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "İstintaq təcridxanalarının daxili intizam Qaydaları" üzrə:

3.1.1. 8.1.28-ci yarımbənddə, 16-cı hissənin adında, 16.1-ci bənddə, 16.4-cü bəndin ikinci cümləsində, 16.5-ci və 34.7-ci bəndlərdə "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

3.1.2. həmin Qaydalara 15 nömrəli əlavə - "Həbs edilmiş şəxslər üçün nümunəvi gün bölgüsü"ndə "verilişlərinə" sözü "proqramlarına" sözü ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları"nın 4.2-ci bəndində "verilişlərinə" sözü "proqramlarına" sözü ilə, 10.4-cü bəndin ikinci cümləsində "verilişinə" sözü "proqramına" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli 265 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 896 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin Nizamnaməsi"nin 1.4-cü bəndində "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə əvəz edilsin.

**5.** "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 avqust tarixli 279 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 965 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərarla təsdiq edilmiş "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası" üzrə:

5.1.1. 1.1-ci bənddə "kütləvi informasiya vasitələri (bundan sonra - KİV)" sözləri "media" sözü ilə əvəz edilsin;

5.1.2. 1.2-ci və 1.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2. "Media haqqında" Azərbaycan Respublikası Qanununun 72.1-ci maddəsinə əsasən media subyektləri Media Reyestrinə daxil edilmiş jurnalistlərini dövlət orqanlarının (qurumlarının), müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının razılığı ilə və onların müəyyən etdiyi akkreditasiya qaydalarına əməl etməklə həmin qurumlarda akkreditasiyadan keçirə bilərlər.

1.3. Dövlət orqanlarının (qurumlarının), müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının razılığı ilə və onların müəyyən etdiyi akkreditasiya qaydalarına əməl etməklə həmin qurumlarda akkreditasiya olunmuş jurnalistə, qapalı tədbirlər istisna olmaqla, iclas, müşavirə və başqa tədbirlər barədə əvvəlcədən məlumat verilir, onun stenoqramlarla, protokollarla və başqa sənədlərlə tanış olması üçün şərait yaradılır.";

5.1.3. 1.4-cü və 4.4-cü bəndlərdə "KİV" akronimi "Media subyektinin idarəetmə orqanının" sözləri ilə əvəz edilsin;

5.1.4. 2.1-ci bənddə və 2.1.1-ci yarımbənddə "KİV" akronimi "media subyekti" sözləri ilə əvəz edilsin;

5.1.5. 2.1.1.1-ci yarımbənddə "KİV" akronimi "Media subyektinin idarəetmə orqanının" sözləri ilə əvəz edilsin;

5.1.6. 2.1.1.5-ci yarımbənddə "və xidməti vəsiqələrinin" sözləri "və jurnalist vəsiqələrinin (jurnalist olmayan əməkdaşların xidməti vəsiqələrinin)" sözləri ilə əvəz edilsin;

5.1.7. 2.1.1.6-cı yarımbənddə "KİV orqanının" sözləri "Media subyektinin" sözləri ilə əvəz edilsin;

5.1.8. 2.1.2-ci yarımbənddə "KİV" akronimi "media subyekti" sözləri ilə əvəz edilsin;

5.1.9. 2.1.3-cü yarımbənddə "KİV" akronimi "media subyekt-lərinin" sözləri ilə əvəz edilsin;

5.1.10. 2.1.3.1-ci yarımbənddə "KİV" akronimi "media subyek-tinin" sözləri ilə əvəz edilsin;

5.1.11. 3.1-ci bənddə "Yalnız rəsmi qeydiyyatdan keçmiş və ya uçota alınmış dövri mətbu nəşrlər, teleradio yayımçıları, informasiya agentlikləri, internet və digər yayım formaları" sözləri "Media subyektlərinin Media Reyestrinə daxil edilmiş jurnalistləri" sözləri ilə, "KİV" akronimi "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

5.1.12. 3.3-cü bənddə "KİV" akronimi "Media subyektlərinin" sözləri ilə əvəz edilsin;

5.1.13. 3.3.4-cü yarımbənddə "dövri mətbu nəşr" sözləri "çap mediası subyekti" sözləri ilə əvəz edilsin;

5.1.14. 3.3.5-ci yarımbənddə "internet informasiya ehtiyatı" sözləri "onlayn media subyekti" sözləri ilə əvəz edilsin;

5.1.15. 3.7-ci bəndin ikinci cümləsində "KİV-in" sözləri "Media subyektinin" sözləri ilə əvəz edilsin;

5.1.16. 3.8-ci bənddə "KİV" akronimi "Media subyektlərinin" sözləri ilə əvəz edilsin;

5.1.17. 4.1.2-ci yarımbənddə (ikinci halda) "şərəf və ləyaqətini" sözləri "işgüzar nüfuzunu" sözləri ilə əvəz edilsin;

5.1.18. 4.1.3-cü yarımbənddə "KİV" akronimi "Media subyekti" sözləri ilə əvəz edilsin;

5.1.19. 4.1.7-ci yarımbənddə "KİV-in" sözləri "Media subyektinin" sözləri ilə əvəz edilsin;

5.1.20. 4.2-ci bənddə "KİV" akronimi "Media subyektlərinin" sözləri ilə əvəz edilsin;

5.1.21. 4.2.3-cü yarımbənddə "KİV-lə" sözləri "media subyekti ilə" sözləri ilə əvəz edilsin;

5.1.22. 4.2.4-cü yarımbənddə "KİV-in" sözləri "Media subyektinin" sözləri ilə əvəz edilsin;

5.1.23. 5.1-ci bəndin birinci cümləsində birinci halda "KİV" akronimi "Media subyektlərinin" sözləri ilə, ikinci halda "KİV" akronimi "media subyektinin idarəetmə orqanının" sözləri ilə əvəz edilsin;

5.1.24. 5.2-ci bənddə "KİV" akronimi "media subyektinin" sözləri ilə, "KİV orqanı" sözləri "media subyekti" sözləri ilə əvəz edilsin;

5.1.25. 5.3-cü bənddə "KİV" akronimi "Media subyektinin" sözləri ilə əvəz edilsin;

5.1.26. 5.4-cü bəndin birinci cümləsində "KİV" akronimi "Media subyektlərinin" sözləri ilə əvəz edilsin;

5.1.27. 5.5-ci bənddə "KİV" akronimi "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

5.1.28. 5.6-cı bənddə (hər iki halda) "KİV" akronimi "media subyektinin" sözləri ilə əvəz edilsin;

5.1.29. 5.7-ci bənddə "KİV" akronimi "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

5.2. həmin Qaydaya 1 nömrəli əlavə - "AKKREDİTƏ ÜÇÜN ANKET FORMASI"nda "KİV" akronimi "media subyektinin" sözləri ilə, "KİV-DƏKİ" sözləri "Media subyektində" sözləri ilə, "KÜTLƏVİ İNFORMASİYA VASİTƏSİ (VASİTƏLƏRİ)" sözləri "MEDİA SUBYEKTLƏRİ" sözləri ilə əvəz edilsin;

5.3. həmin Qaydaya 3 nömrəli əlavə - "AKKREDİTƏ KARTLARI VERİLMİŞ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏN-DƏLƏRİNİN QEYDİYYATI"-nın adında "KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ" sözləri "MEDİA SUBYEKTLƏRİNİN" sözləri ilə, mətnində ismin müvafiq hallarında "KÜTLƏVİ İNFORMASİYA VASİTƏSİ" sözləri ismin müvafiq hallarında "MEDİA SUBYEKTİ" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 236 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 969 (Cild I) ilə təsdiq edilmiş "DOST" mərkəzlərinin Nümunəvi Nizamnaməsi"nin 3.1.9-cu yarımbəndində "kütləvi informasiya vasitələri ilə" sözləri "mediada" sözü ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 3 noyabr tarixli 435 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 11, maddə 1379) ilə təsdiq edilmiş "Dövlət mülkiyyətində olan və ya dövlət vəsaiti hesabına yaradılan tədqiqat infrastrukturundan tədqiqatçıların istifadəsi Qaydası"na əlavə - "Tədqiqat infrastrukturunun avadanlığından tədqiqatçıların istifadəsi üzrə xidmətlərin göstərilməsi haqqında müqavilənin Nümunəvi Forması"nın 3.4.5-ci yarımbəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***